# Şəmsəddin Kuzəçiyə Ədəbiyyat İnstitutunun "Fəxri doktoru" adı verilib



AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Çağdaş Türkman ədəbiyyatı" mövzusunda elmi seminar keçirilib.

Bu barədə AMEA-dan məlumat verilib. Bildirilib ki, əvvəlcə seminarın mövzusuna həsr olunmuş kitab sərgisi ilə tanışlıq olub.

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli İraq-Türkman və Azərbaycan ədəbiyyatının əlaqələrindən danışıb, xoryat janrında yazılan əsərlərin Kərkük ədəbiyyatında xüsusi rolunu vurğulayıb. Qeyd edib ki, Kərkük ədəbiyyatı mövzusunda 70-dən çox kitabın müəllifi olan Şəmsəddin Kuzəçi İraq-Azərbaycan, Kərkük-Azərbaycan elmi-ədəbi əlaqələrinin inkişaf etdirilməsində böyük xidmət göstərir. Bu gün İraq-Azərbaycan ədəbi, mədəni əlaqələrinin yüksək səviyyədə inkişaf etməkdə olduğunu deyən akademik İsa Həbibbəyli bu əlaqələrin Kərkükdə yaşayan soydaşlarımızın öz ana dillərində məktəblərini, mədəniyyətini qurub daha da möhkəmlətməsinə xidmət etdiyini söyləyib.

Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, AMEA Rəyasət Heyətinin bu il iyulun 12-də keçirilən iclasında İraq-Türkman Araşdırmaları üzrə Əlaqələndirmə Şurası yaradılıb. Şuraya İraq-Türkman tarixi, dili, ədəbiyyatı, mədəniyyəti, etnoqrafiyası və folkloru ilə bağlı araşdırmaların əlaqələndirilməsi və sistemli koordinasiyası istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi tapşırılıb. AMEA rəhbəri bu günlərdə şuranın ilk iclasının keçirildiyini, "İraq-Türkman ləhcəsinin tarixi-dialektoloji təsviri" mövzusunda müzakirələrin aparıldığını vurğulayıb, bu istiqamətdə fəaliyyətin davam etdiriləcəyini bildirib.

AMEA rəhbəri İraq-Türkman alimlərinin elmi məqalələrindən ibarət kitabın çap olunması zərurətindən də söz açıb.

Daha sonra akademik İsa Həbibbəyli Şəmsəddin Kuzəçiyə Azərbaycan-İraq-Türkman ədəbiyyatının tədqiqi və təbliği sahəsindəki xidmətlərinə, Azərbaycan elmi-ədəbi dairələri ilə səmərəli əlaqələrinə görə Ədəbiyyat İnstitutunun "Fəxri doktoru" diplomunu təqdim edib.

Şəmsəddin Kuzəçi tədbirin təşkilinə və onun fəaliyyətinə verilən yüksək qiymətə görə akademik İsa Həbibbəyliyə minnətdarlığını bildirib. "Çağdaş Türkman ədəbiyyatı" mövzusunda məruzə ilə çıxış edən Ş.Kuzəçi İraq türkmanlarının məskunlaşma tarixinə nəzər salıb. Çağdaş Türkman ədəbiyyatının ümumi mənzərəsini yaradan tədqiqatçı görülmüş işlər barədə ətraflı məlumat verib. O, çağdaş Türkman şairlərinin ikicildlik antologiyasını hazırladığını qeyd edib.

AMEA-nın İraq-Türkman Araşdırmaları üzrə Əlaqələndirmə Şurasının sədri, akademik Teymur Kərimli və şuranın sədr müavini, professor Qəzənfər Paşayev görülən işlərin əhəmiyyətini yüksək qiymətləndirib, şuranın geniş tədbirlər planının hazırlandığını bildiriblər. Həmçinin qazaxıstanlı alim Ağmaral İsmaqulova, filologiya elmləri doktoru, professor İmamverdi Həmidov və tarix elmləri doktoru Güllü Yoloğlu çıxış edərək bu tədbirin çağdaş Türkman ədəbiyyatı ilə bağlı gələcək işlərə böyük təkan verəcəyinə əminliklərini ifadə ediblər.

Elmi seminarda İraq-Türkman Araşdırmaları üzrə Əlaqələndirmə Şurasının sədri, akademik Teymur Kərimli, habelə Qazaxıstandan gəlmiş alimlər və akademiyanın əməkdaşları iştirak ediblər.

